**“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq, “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 2, maddə 58; 2010, 3, maddə 178, 4, maddə 276; 2011, 12, maddə 1104; 2013, 11, maddə 1274; 2014, 2, maddə 81, 10, maddə 1159, 11, maddə 1361; 2015, 11, maddə 1294; 2016, 3, maddə 413; 2017, 5, maddələr 696, 711, 7, maddə 1295) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4.0.12-ci maddə əlavə edilsin:

“4.0.12. valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər.”.

2. 6.1.1-ci maddəyə “fiziki və ya hüquqi şəxslər” sözlərindən sonra “, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 oktyabr 2017-ci il
806-VQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 dekabr 2022-ci il tarixli **781-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 31 yanvar 2023-cü il, “Azərbaycan” qəzeti, 1 fevral 2023-cü il, 22**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 30 dekabr 2022-ci il tarixli **781-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 31 yanvar 2023-cü il, “Azərbaycan” qəzeti, 1 fevral 2023-cü il, 22**) ilə ləğv edilmişdir.